# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

## "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində əlilliyi olan şəxslər üçün onların yaşadığı fərdi evlərin uyğunlaşdırılması ilə bağlı xərclərin minimum məbləği"nin təsdiq edilməsi barədə

"Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanının 1.1.13-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində əlilliyi olan şəxslər üçün onların yaşadığı fərdi evlərin uyğunlaşdırılması ilə bağlı xərclərin minimum məbləği" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 30 dekabr 2020-ci il

№ 520

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2020-ci il 30 dekabr
tarixli 520 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində əlilliyi olan şəxslər üçün onların yaşadığı fərdi evlərin uyğunlaşdırılması ilə bağlı xərclərin

# MİNİMUM MƏBLƏĞİ

| **Sıra №-si** | **Uyğunlaşdırılan sahənin təyinatı** | **1 fərdi evin uyğunlaşdırılması xərcləri (manatla)** |
|---|---|---|
| **1** | **2** | **3** |
| 1. | İkitərəfli məhəccəri olan pandusların quraşdırılması üzrə | 3845,0 |
| 2. | Sanitar qovşağında tutacaq və dayaqların quraşdırılması üzrə | 280,0 |
| 3. | Sanitar qovşağındakı qapıların hər iki tərəfə açılan qapılarla əvəz olunması üzrə | 379,0 |
| 4. | Otaq və mətbəx qapılarının xüsusi diyircəklər üzərində hərəkət edən qapılarla əvəz olunması | 1144,0 |
| 5. | **Cəmi** | **5648,0** |
| | **Əlavə dəyər vergisi (18 %) ilə birlikdə, cəmi** | **6665,0** |

*İki qapı üçün müəyyən olunmuş minimum məbləğ. Hər bir otaq üçün bir otaq qapısı nəzərdə tutulmaqla və cəmi 5 otaqdan çox olmamaqla hər əlavə otaq qapısı üçün xərclər 530 manat təşkil edir.